Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azad sahibkarlığa dəstək bir neçə istiqamətdə dərinləşdirilir...

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

**Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra sahibkarlıq fəaliyyəti böyük inkişaf yolu keçib. 1996-cı ilə qədər iqtisadi böhranın olması, yüksək inflyasiyanın qeydə alınması sahibkarların fəaliyyətinə də ciddi problemlər yaradırdı. Dövlət həmin dövrdə vəziyyətdən çıxmaq üçün bir sıra radikal addımlar atdı. İstehsal və xidmət müəssisələrinin böyük hissəsinin dövlətin əlində olmasına baxmayaraq qiymətlərin liberallaşdırılmasına, yəni qiymətlərin bazarda müəyyənləşdirilməsinə imkan verdi.**

Qiymətlərin liberallaşdırılmasından sonra ölkə iqtisadiyyatında yaranmış vəziyyət islahatların özəyini təşkil edən özəlləşdirmə prosesini, bu əsasda sahibkarlığın inkişafı və rəqabət mühitinin formalaşmasını zəruri edirdi.

### Sahibkarlığın inkişafında daha aktiv dövr 1994-cü ildən sonra başladı

1996-cı ilə qədər ölkədə durğunluq davam etdi və bu vəziyyətdə özəl sektorun inkişafı üçün ilkin addımlar atıldı. Əsas tədbirlər ölkə iqtisadiyyatında sabitliyin təmin edilməsi idi. Bu olmadan sahibkarlar sinfini inkişaf etdirmək mümkün deyildi. Həmin illərdə aparılan məqsədyönlü siyasət, həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olundu ki, bu da iqtisadi islahatların həyata keçirilməsi üçün möhkəm əsas formalaşdırdı. Bu dövrdə sahibkarlığın təşəkkülü və inkişafı istiqamətində müəyyən tədbirlər həyata keçirilsə də, əsaslı dönüşə 1996-cı ildən etibarən nail olundu. Respublikanın potensialı nəzərə alınaraq uğurlu neft strategiyası işlənib hazırlandı və müvəffəqiyyətlə həyata keçirildi. Bu isə öz növbəsində neft sektorunun inkişafı ilə bağlı yardımçı sahələrin inkişafına təkan verdi və həmin sahələrdə yerli sahibkarların mövqeləri möhkəmləndi. Neft sektorunun inkişafından əldə edilən gəlirlər hesabına ölkəmizin dünya bazarında üstünlük əldə edə biləcəyi ənənəvi qeyri-neft sektoru sahələrinin inkişafı istiqamətində uğurlar əldə edildi. Ölkənin yerləşdiyi mühüm strateji mövqedən yararlanaraq uğurlu beynəlxalq iqtisadi layihələrin reallaşdırılmasına başlandı. İqtisadi və dövlət idarəetmə aparatında aparılan struktur islahatları ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sahibkarlıq sektorunun inkişafına güclü təkan verdi.

### Davamlı inkişaf üçün həm dövlət qurumlarının, həm də cəmiyyətin fəal iştirakı vacibdir

Son illər Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımlar atılır. "Sahibkarlıq fəaliyyəti haqqında" qanun, "Lisenziyalar və icazələr haqqında" qanun və digər normativ aktlar azad sahibkarlığın hüquqi çərçivəsini müəyyən edir. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN Xidmət") və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) kimi qurumlar sahibkarlara dəstək verir. Sadələşdirilmiş vergi sisteminin tətbiqi və müəyyən güzəştlər mikro və kiçik sahibkarlar üçün əlverişli şərait yaradır. Sahibkarlıq fəaliyyətində şəffaflığı artırmaq və korrupsiyanı azaltmaq məqsədilə elektron qeydiyyat, elektron lisenziyalaşdırma və vergi bəyannamələrinin onlayn təqdim olunması sistemi tətbiq olunub. Sahibkarlığın İnkişafı Fondu vasitəsilə güzəştli kreditlərin ayrılması və innovativ biznes layihələrinə maliyyə dəstəyi göstərilir. Azərbaycanda azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafı davamlı iqtisadi inkişaf və sosial rifah üçün vacib amildir. Dövlətin bu sahədə həyata keçirdiyi islahatlar və yaratdığı institusional mexanizmlər sahibkarlıq mühitini tədricən yaxşılaşdırır. Lakin uzunmüddətli uğur üçün həm dövlət qurumlarının, həm də cəmiyyətin fəal iştirakı və əməkdaşlığı vacibdir.



### Sahibkarların maliyyə resurslarına çıxış imkanları artıb

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Vüqar Bayramov hesab edir ki, qeyri-neft sektorunun inkişafı və eyni zamanda gizli iqtisadiyyata qarşı mübarizə iqtisadi siyasətin əsas prioritetlərindən biridir: "Bu, həm də iqtisadiyyatın divertifikasiyası baxımından vacib hesab edilir. Məsələ ondadır ki, bir tərəfdən qanunvericiliyin təkmilləşdirilməsi prosesi həyata keçirilir. Xüsusən də rəqabət mühitinin gücləndirilməsi, mikro və kiçik sahibkarlara daha böyük dəstəyin verilməsi, kredit xətlərinin genişləndirilməsi və eyni zamanda güzəştli kreditlərin həcminin artırılması bura daxildir. Bütün bunlar həyata keçirilən tədbirlərin, inkişafın tərkib hissəsidir. Bütün bunlarla yanaşı, artıq xeyli müddətdir ki, ölkədə maliyyə stabilliyini müşahidə edirik. Eyni zamanda kiçik və orta sahibkarların mərhələli şəkildə maliyyə resurslarına çıxış imkanları artıb. Sahibkarlıqla bağlı proses elektronlaşıb. Həm müraciətlər, həm də digər proseslərin elektronlaşdırılması şəffaflığı artırıb. Bu, həm də bütövlükdə sahibkarların dövlət xidmətlərindən, eləcədə maliyyə resurslarından istifadəsinə imkan yaradır. Sahibkarların dəstəklənməsi ilə bağlı konkret dövlət mexanizmləri var. Sahibkarların güzəştli kreditlərdən istifadə mexanizmi və bu mexanizmlərin genişləndirilməsi öz prioritetliyini qoruyub saxlayacaq. Güzəştli kredit mexanizminin təkmilləşdirilməsi, sahibkarlara daha çox prioritet istiqamətlər üzrə güzəştli kreditlərin verilməsi, aşağı faizli kreditlərə çıxış imkanlarının artırılması nəzərdə tutulur. Bu da sahibkarlıq fəaliyyətinin dəstəklənməsi baxımından çox vacib istiqamətlərdəndir. O baxımdan Azərbaycanda sahibkarlığın dəstəklənməsi, liberal iqtisadiyyatın gücləndirilməsi prioritetdir və bu istiqamətdə həyata keçirilən fəaliyyətlər də birmənalı şəkildə iqtisadiyyatın şaxələnməsinə, neftdən asılılığın aradan qaldırılmasına xidmət edir".

***Vidadi ORDAHALLI***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur***